# İŞIQLI ŞEİRLƏR

**Bu günlərdə qəzetimizin təsisçisi, millət vəkili, yazıçı-publisist Aqil Abbas mənə bir qovluq təqdim etdi. Sonra da vurğuladı ki, bir səhifə şeirlərini hazırla növbəti nömrə üçün...**

**Tanış oldum Elsevər Qəlbi Qəmin şeirləri ilə. Oxuduqca hiss etdim ki, həyata kədərin, qəmin zirvəsindən baxan, hadisələrə özünəməxsus qiymət verməyə çalışan Elsevər özünü misralarında, şeirlərində tapır. Elə özünü tapdığı şeirlərə və misralara da ürəyini boşaldır.**

**... Təbii ki, həyatda müəyyən problemləri olan söz adamları Allaha daha çox üz tuturlar. Və şeirlərində də talelərini ifadə etməyə, öz yaşamlarını çevrəyə və cəmiyyətə mesajlarını edirlər. Bax, bu mənada Elsevər Qəlbi Qəm həyatını da şeirləşdirməyə, onu da oxucuya pıçıldamağa cəhd edir. Bir oxucu kimi mən qovluğundakı şeirləri ilə tanış olduöum Elsevər Qəlbi Qəmin yaradıcılığında ümid, işıq gördüm. Və elə həmin o ümid və işıqla da başbaşa qalan Elsevərə və onu oxucularına uğurlar diləyirəm.**

**Ümidi, işığı bol olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

***Elsevər QƏLBİQƏM***

### *AZƏRBAYCAN*

Adın oddan almış mənim vətənim,
Xaincə baxanı yandırıb-yaxar.
Kim isti qoynuna pənah gətirsə,
Doğma balası tək bağrına basar.

***

Zalıma, alçağa baş əyməz qəti,
Şərəflə böyüdər hər bir övladın.
Əlindən gəldikcə bütün sahədə,
Övladı da daim ucaldar adın.

***

Əgər mənim xalqım ayağa qalxsa,
Düşməni əridib, muma döndərər.
Qəzəbdən elə bir od qalayar ki,
Alovu daha da göyə yüksələr.

***

Rahat nəfəs alır artıq azaddır,
Əzmək istəyənlər əzə bilmədi.
Xalqın qüvvəsindən şübhə edənlər,
"İyirmi yanvar"ı məgər görmədi?

***

Bu torpaq əzəldən igid yetirib,
Keçmişdə Koroğlu, Babəyi vardı.
İndi də tarixə ad yazdıran var,
Azadı, Ramili, bir də İbadı

***

Allah bu torpağı pak yaradaraq,
Quranda ölkəmə işarə etdi.
Öz qüdrətindən bir nişanə kimi,
Bu yurdda yaratdı Əshabi-Kəhfi.

***

Yeni uğurlara imza ataraq,
Vətənim özünü qüvvətləndirir.
Baxın, son illərdə gözəl ölkəmiz,
Yad xalqlar yanında söz sahibidir.

***

Cənnətə bənzətsəm, heç yanılmaram,
Rəbim bərəkətin əsirgəməsin!
Bilsin qələm əhli bu cür diyarın,
Vəsf etmək lazımdır hər bir guşəsin.

***

Az əzab çəkməyib mənim vətənim,
Yetən-yetən ona bir balta çalıb.
Amma o, sarıyıb yaralarını,
Bütün zərbələrə dözüb, dayanıb.

***

Nə qədər yazsan da bəs etməyəcək,
Qəlbiqəm, sözünü gəl yetər sona.
Üz tutub soruş bir insanlardan;
Tərif yaraşmırmı Azərbaycana?!

### *BAĞIŞLA*

Vətəndən, torpaqdan nə deyim ki, mən,
Vətənin xeyrinə nə iş görmüşəm?
Sübut edənmirəm elə sevgimi,
Guya hələ bir də Elsevərmişəm.

***

Qəbul et üzrümü, bağışla Vətən,
Neçə ildir sənə zəhmət vermişəm.
Ancaq oturmuşam əli cibində,
Sən çörək vermisən, mən də yemişəm.

***

"Bağışla" deməklə işmi qurtarar?
Xətanı əməllə düzəltmək gərək.
Vətən darda ola, qurtarmayasan,
İlahi, dözərmi buna hər ürək?!

***

Verə bilməsəm də borcunu Vətən,
Dilim hey səninçün dua edəcək.
Övladın yazacaq haqqında dastan,
"Sənə minnətdaram, sağ ol"- deyəcək.

### *BİTİR BAHAR GÜNLƏRİM*

Ümidim üzülməyib hələ yenə də,
Qəlbim ildən-ilə külə dönsə də,
Ürəyim sıxılıb, acı çəksə də,
Ömrümün çırağı daim sönsə də.

***

Yavaş-yavaş bitir bahar günlərim,
Tökülür ləçəyi tər çiçəklərin.
Bağlayıb yolumu qəmlərim mənim,
Heç zaman gülməyib gözlərim mənim.

***

Həvəsim qalmayıb yaşamağa da,
Bu cür yaşamağın mənə nə xeyri?
Görəcəyim günlər acı zəhərsə,
Şirin söhbətlərin mənə nə xeyri?

***

Yaşamaq ürəkdən gülənlərindir,
Ölməksə yanaraq ağlayanlarçün.
Dünyaya bu halda gələcəkdimsə,
Dünyaya gəlməyin mənə nə xeyri?!

### *DƏSTƏK OLUN ƏLİLLƏRƏ*

Diqqət ilə dinləsinlər,
Sözüm var sağlam kəslərə;
Görəndə ürkək baxmayın,
Dəstək olun əlillərə.

***

Adam var ki, boy-buxunlu,
Mənən əlildir yenə də.
Baxın o cür zəlillərə,
Dəstək olun əlillərə.

***

Yaradan nə vara baxar,
Nə də şux qəddi-qamətə.
O, yalnız baxar qəlblərə,
Dəstək olun əlillərə.

***

Onları başqalarından
Fərqli tutmayın zərrəcə,
Xoş söz ilə könlün alın,
Dəstək olun əlillərə.

### *DOSTLARIMA*

Kaş ki dostlarımın sayı çox ola,
Gəlib yad edələr hərdən bir məni.
Görəndə ürəyim xeyli şad olur,
Mənə bir az qayğı göstərənləri.

***

Özünü tək-tənha sanan insanın,
Qəm-qüssəli olar, gülməz gözləri.
Kiminsə dağ boyda dərdi də olsa,
Bölüşdüyü varsa, qalmaz kədəri.

***

Dost haqqında belə məsəl də vardır:
"Dostu çətin gündə sına", məsəli
Pis gündə, xoş gündə dost bir olmalı,
Əgər bir deyilsə, çəkilsin geri.

***

Bilərək dərdinə etmirsə dərman,
Sizcə ona "dost" deməyə dəyərmi?
Hər zaman səmimi olan dostundan ,
Qəlbiqəm canını əsirgəyərmi?!

### *ƏSL İNSANLIQ*

Dünyanı vecinə almayan bir kəs,
Axı hardan bilsin nədir qəm-kədər?!
İnsanlıq etməyi bacarmayan kəs,
Necə insanlıqdan dəm vura bilər?!

***

Kimin tabağında nə varsa odur,
Dəyişdirsən, qəbul etməz mədəsi.
Kimisi də bəzən bir kəlmə söylər,
Dediyi söz heyran edər hər kəsi.

***

Əsl insan olmaq çətindir, çətin,
Bu adı qazana biləsən gərək.
Gözündən düşməmək üçün millətin,
Həmişə haqq yolla gedəsən gərək.

***

İstər kişi olsun, istərsə qadın,
Ömrünü şərəflə yaşamalıdır.
Dadmaq istəmirsə Cəhənnəm odun,
Heç zaman həddini aşmamalıdır.

### *GƏNCLİK HƏSRƏTİ*

Heç kəs məni gənc sanmasın,
Mən heç gənclik yaşamadım.
Çox arzu eylədim, fəqət
Mən heç gənclik yaşamadım.

***

Hərdən birdən düşünürəm,
Cavanlıq nədir görəsən?
Uşaq ikən qocaldım mən,
Mən heç gənclik yaşamadım.

***

Bir cinayət törətmədən,
Dörd divara məhkum oldum.
Ömür artıq gedir əldən,
Mən heç gənclik yaşamadım.

***

"Barı bircə gün" - deyərək,
Sabaha ümid bağladım.
Əridi ümid şamlarım
Mən heç gənclik yaşamadım.

### *QARANLIQ BİR ÖMÜR*

Hərdən öz-özümə verirəm sual,
Görən bu dərdlərin sonu nədir, nə?
Kədərlərin mənə dolaşmasında,
Görən səbəbləri, görən nədir, nə?

***

Qaranlıq bir ömür sürüb getdikcə,
Baxıram, gözümə qanlı yaş dolur.
Ömrüm qəm yolunda gül kimi solur,
Qəm yolunun sonu görən nədir, nə?

***

Deyirlər, sən niyə qəmli yazırsan,
Sevincdən yaz bir az, kədər nədir nə?
Deyirəm mən necə sevincdən yazım?
Hələ bilməmişəm sevinc nədir, nə?

***

Atam, anam deyir yandırdın bizi,
Deyirəm kədərin kor olsun gözü.
Mənəmsə yandıran, mənəmsə sizi,
Bəs məni yandıran görən nədir, nə?

### *UNUTMA*

Həyat imtahandır, suallar çətin,
Gərək dərslərini unutmayasan.
Şirinliyinə uyub varın-dövlətin,
Nəyə lazım sonra peşman olasan?

***

Hər zaman işində ədalətli ol,
Qoyma məlun şeytan girə qəlbinə.
Qarnını halalca nemətlə doyur,
Qəti haram tikə vurma dilinə.

***

Fəqirin malında gözün olmasın,
Özünün olana yiyələn ancaq.
Maldı, puldu bunlar gəldi-gedərdi,
Bu dünyanın malı burda qalacaq.

***

Bəd əməllərinlə çox da öyünmə,
Bil ki Allah səndən hesab soracaq.
Axirət gününü unutma heç vaxt.
Ən çətin imtahan orda olacaq.

### *YOXDU*

Suda batan tutar saman çöpündən,
Mən batdığım suda saman da yoxdu.
Aylar, illər elə gəlib-keçir ki,
Heç baş qaşımağa zaman da yoxdu.

***

Bilmirəm dərdimi kimlərə deyim,
Nə hərəkətim var, nə də ki heyim.
Mən hansı loğmanın qapısın döyüm?
İndi elə yaxşı loğman da yoxdu.

***

İnsanlar, bircə yol məni dinləyin,
Məgər mənə zərrə yanan da yoxdu?
Nə qədər deyirəm kömək eləyin,
Amma heç yadına salan da yoxdu.

***

Necə döyüşüm mən bu dərd-sər ilə?
Mən yalnız qalmışam, onlarsa çoxdu.
Onlar məni elə sıxışdırır ki,
Gözümü açmağa aman da yoxdu.

### *XOCALI*

Nə bəlalar gətirdilər başına,
Qıh-gəlini əsir olan , Xocalı.
Qaniçənlər sənə divan tutdular,
Gülüstanı viran olan, Xocalı.

***

Al qana boyandı bəmbəyaz qar da,
Belə bir müsibət görülüb harda?!
Sinən çox əzilib yad ayaqlarda,
Çoxmu sızıldayır yaran, Xocalı?!

***

Sanma düşmən səndə səfa sürəcək,
Bunun cəfasını sonra görəcək.
Bir gün xalqımıza cavab verəcək,
Sənə çarpaz dağlar vuran, Xocalı.

***

Çünki vəhşidi o, heç insan deyil,
Elə ilandır ki, dili haçalı.
Azərbaycan səni unudan deyil,
Hələ var arxanda duran, Xocalı.